BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2021*

UOT 342.7

# SAĞLAMLIĞIN QORUNMASI HÜQUQU VƏTƏNDAŞLARIN ƏSAS KONSTİTUSİON HÜQUQLARINDAN BİRİ KİMİ: MƏZMUNU VƏ HÜQUQİ TƏBİƏTİ

**F.R.PƏNAHOV**
***AMEA Hüquq və İnsan Haqları İnstitutu***
***f.panah@mail.ru***

*Bu məqalədə sağlamlığın qorunması hüququ vətəndaşların əsas konstitusion hüquqlarından biri kimi nəzərdən keçirilir, onun məzmunu və hüquqi təbiəti ilə bağlı məsələlər təhlil edilir. Müəllif hüquq ədəbiyyatının və sağlamlığın qorunması sahəsində qüvvədə qanunvericiliyin təhlili və ümumiləşdirilməsi əsasında sağlamlığın qorunması hüququna anlayış verir, sağlamlığın qorunması hüququnun insan və vətəndaşların digər konstitusion hüquqlarının təminatında rolunu göstərir, "sağlamlığın qorunması sahəsində hüquqlar" anlayışı və "pasiyent hüquqları" anlayışının məzmunca, əhatə dairəsinə görə fərqli anlayışlar olduğunu əsaslandırır, habelə qanunvericilikdə təsbit olunması üçün pasiyent hüquqlarının anlayışını təklif edir.*

**Açar sözlər:** sağlamlıq, sağlamlığın qorunması, sosial hüquqlar, sağlamlığın qorunması hüququ, sağlamlığın qorunması hüququnun məzmunu, sağlamlığın qorunması hüququnun hüquqi təbiəti, tibbi yardım, pasiyent hüquqları

Hər bir insan üçün sağlamlıq onun həyat fəaliyyətinin bütün sahələri ilə sıx surətdə bağlı olmaqla, xüsusi dəyər kəsb edir. Bu baxımdan təsadüfi deyildir ki, hazırda mövcud olan dünya dövlətlərinin böyük əksəriyyətinin konstitusiyalarında sağlamlığın qorunması ilə bağlı normalar öz əksini tapmışdır.

Bütün tarix boyu sağlamlıq birincidərəcəli əhəmiyyətə malik nemət kimi çıxış etmişdir. Hələ qədim romalılar deyirdilər: "Non est census supersalitis corporis". Bu cümlə hərfi tərcümədə belə səslənir: "Sağlamlıqdan dəyərli heç nə yoxdur". Maraqlıdır ki, vətəndaşların həyat və sağlamlığı çox zaman vahid hüquqi konstruksiyada birləşdirilir. Bu hal mülki və cinayət hüququ üçün xarakterikdir. Konstitusiya hüququnda isə onlar müstəqil hüquqi mahiyyət kəsb edirlər. Nəzəri-metodoloji baxımdan, bu, yaşamaq hüququnun konstitusion təbiətinin çoxcəhətli olması və onun müdafiəsi üzrə mülki hüquqi və cinayət hüquqi vasitələrin məhdudluğu ilə izah edilir. Lakin əgər söhbət bütövlükdə yaşamaq hüququndan deyil, onun realizəsinin ayrı-ayrı istiqamətlərindən gedirsə, həyat və sağlamlığı təhdid edən faktorlar eynidirsə, bu halda yaşamaq və sağlamlıq hüququ kimi konstitusion hüquqi konstruksiya daha məqbuldur [17, 44; 16, 43].

Beynəlxalq hüquqda sağlamlıq anlayışının klassik tərifi Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsində (1946) tapmışdır: "Sağlamlıq yalnız xəstəliklərin və fiziki qüsurların olmaması deyil, tam fiziki, ruhi və sosial rifah vəziyyətidir".

V.A.Belokopıtovaya görə sağlamlıq insan üçün ali nemət olmaqla, ictimai tərəqqinin əsas göstəricilərindən biri kimi çıxış edir. Bu baxımdan sağlamlığın qorunması və tibbi yardım almaq hüququ ən mühüm sosial hüquqlar sırasına daxildir. Müasir dövrdə əhalinin sağlamlığının qorunması ilə bağlı məsələlər bütün dünyada getdikcə daha çox prioritet əhəmiyyət kəsb etməyə başlayır. Sağlamlıq insanların təhlükəsizliyinin təmin edilməsinin başlıca aspekti qismində çıxış edir, sağlamlığın qorunmasının ümumi inkişaf istiqamətlərinin işlənib hazırlanması üzrə fəaliyyət intensivləşir, səhiyyə sahəsində milli strategiyalar hazırlanır [10, 31-32]. Qeyd etmək lazımdır ki, müasir qloballaşma prosesləri fonunda sağlamlığın qorunması vəzifəsi əvvəlki dövrlərlə müqayisədə daha çox ümumi xarakter daşımağa başlayır və bütün dünya dövlətlərinin birgə səylərini və sıx surətdə əməkdaşlıq etməsini tələb edir.

Sağlamlığın qorunması hüququ insana bütün ömrü boyu, yəni embrionun inkişafı mərhələsindən insanın ölüm anına qədər məxsus olur.

Uzun müddət sağlamlığın qorunması hüququna dövlət səviyyəsində həyata keçirilməyən ikincidərəcəli hüquq kimi yanaşılmışdır. Ona görə də bu hüquqa diqqət də lazımi səviyyədə olmamışdır. Lakin sağlamlığın qorunması hüququ və onun təminatları ilə bağlı müddəalar müxtəlif ölkələrin konstitusiya və qanunvericiliyinə geniş surətdə daxil edildikdən sonra vəziyyət əks istiqamətdə dəyişməyə başlamışdır.

SSRİ-nin 1936-cı il Konstitusiyasında sağlamlıqla bağlı yalnız göstərilirdi ki, vətəndaşların qocalıq, habelə xəstəlik və əmək qabiliyyətinin itirilməsi hallarında maddi təminat hüququna malikdir. Bu, əməkçilərə pulsuz tibbi yardımın göstərilməsi formasında həyata keçirilirdi. SSRİ-nin 1977-ci il Konstitusiyasında isə sağlamlığın qorunması və tibbi yardım almaq hüququnun müasir məzmununun nümunəsi öz əksini tapmışdı. O, sağlamlığın qorunması hüququnu sovet vətəndaşlarının konstitusion hüquqları səviyyəsinə yüksəltmiş, sovet səhiyyə sisteminin təşəkkülü və möhkəmlənməsinin bütün əvvəlki dövrünə müəyyən dərəcədə yekun vurmuşdu. Konstitusiya vətəndaşların sağlamlığının qorunması hüququ ilə yanaşı onun həyata keçirilməsinin aşağıdakı vasitə və yollarını da təsbit edirdi: əhaliyə pulsuz ixtisaslaşdırılmış tibbi yardım göstərilməsi, təhlükəsizlik və istehsal sanitariyası texnikasının inkişafı və təkmilləşdirilməsi, geniş müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi, ətraf mühitin sağlamlaşdırılması üzrə tədbirlərin görülməsi [8, 52] və s.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra sağlamlığın qorunması hüququ Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixdə qəbul edilən ilk milli Konstitusiyasının 41-ci maddəsində vətəndaşlığından asılı olamayaraq hər kəsə şamil olunan əsas insan hüquqlarından biri kimi təsbit olundu: "Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ var-

dır" [2]. Azərbaycan Respublikası Konstitusiyasında hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ bəyan edilməklə yanaşı, dövlətin müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görməsi, sanitariya-epidemiologiya salamatlığına təminat verməsi, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaratması da təsbit edilir. Sağlamlıq fərdin həyat fəaliyyəti ilə birbaşa bağlı olduğuna görə ona olan münasibət və onunla bağlı məsələlərin özəyi konstitusion hüquq səviyyəsində müəyyənləşdirilmişdir. Sağlamlığın qorunması hüququnu bəyan edən Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının vətəndaşlığından asılı olmayaraq, onu hər bir insanın hüququ kimi müəyyənləşdirir. Sağlamlığın qorunması hüququ sosial-iqtisadi hüquqlara aid edilmişdir. O, insan həyatının müəyyən sahəsini əhatə edir, ona münasibətdə baza müddəalarının tövsiyə formullarına yol verilə bilər, onun gerçəkləşməsi iqtisadiyyatın və ehtiyatların vəziyyətindən çox asılıdır [6, 293-295].

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsini rəhbər tutaraq göstərmək olar ki, dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin sağlamlığın qorunması ilə bağlı hüquqlarına təminat verir və bu hüquqları irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Sağlamlığın qorunması sahəsində kompleks və səmərəli tədbirlərin görülməsi müasir dövlətin ən mühüm sosial vəzifələrindən biri kimi çıxış edir. Bu tədbirlər insan və vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsində, yəni Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində təsbit olunan dövlətin ali konstitusion məqsədinin reallaşmasında son dərəcə vacib rol oynayır.

Konstitusiya ilə yanaşı sağlamlığın qorunması və tibbi yardımla bağlı hüquqlar müvafiq konstitusion müddəaları inkişaf etdirərək konkretləşdirən çoxsaylı digər normativ hüquqi aktlarda da öz təsbitini tapmışdır. Həmin aktlar içərisində 26 iyun 1997-ci il tarixdə qəbul edilən "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu xüsusi yer tutur. Qanunun preambulasında göstərilir ki, əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzun ömürlüyünün artırılmasına, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli tədbirlərin məcmusundan ibarətdir [3].

Bəzən sağlamlığın qorunması və tibbi yardım anlayışları sinonim məfhumlar kimi işlədilir. Lakin bunu düzgün hesab etmək olmaz. Belə ki, sağlamlığın qorunması daha geniş anlayışdır və tibbi yardım həmin anlayışın yalnız bir hissəsini özündə əks etdirir. "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda sağlamlığın qorunmasına verilən anlayışdan məlum olur ki, əhalinin sağlamlığının qorunması kompleks bir sistemdir və tibbi yardım bu sistemin bir hissəsini təşkil edir [4, 16-17].

Sivilizisiyanın inkişafının hazırkı mərhələsində sağlamlığın qorunması

hüququ artıq fərdi rifah çərçivəsindən çıxaraq, bütövlükdə dövlət və vətəndaş cəmiyyəti üçün mühüm dəyərə çevrilmişdir. Sağlamlığın qorunması hüququnun xüsusiyyəti ondan ibarətdir ki, bu hüquq ayrılmaz insan hüquqları sırasına aiddir, hələ insan doğulmazdan əvvəl ona məxsus olur, cəmiyyətin həyat şəraitinin ayrılmaz şərti kimi çıxış edir, yalnız dövlətin öz vətəndaşlarının sağlamlığını qorumaq və möhkəmləndirmək öhdəliyi ilə deyil, ilk növbədə, vətəndaşın öz sağlamlığının qayğısına qalması zərurəti ilə bağlıdır. İnsanın həyatı və onun sağlamlığı cəmiyyət üçün ali dəyərdir və bütün digər dəyərlər və nemətlər məhz bu dəyər nəzərə alınmaqla müəyyən edilməlidir. Sağlamlığın qorunması hüququ şəxsiyyətin hüquqi statusunun zəruri elementi olmaqla, insan və dövlət arasında qarşılıqlı əlaqələrdə müəyyənedici faktorlardan biri kimi çıxış edir. Bu hüququn məzmunu şəxsi və ictimai nemət kimi sağlamlığın sosial dəyəri ilə şərtlənir. Əhalinin yaşlanması və əmək qabiliyyətli insanların sayının azalması ilə əlaqədar olaraq maddi nemətlərin istehsalı üçün zəruri olan vacib resurs kimi sağlamlığın əhəmiyyəti artır [15]. Həmçinin göstərmək lazımdır ki, sağlamlığın qorunması hüququnun səmərəli surətdə realizəsi şəxsiyyətin hərtərəfli inkişafının və yaşamaq hüququnun dolğun təminatının zəruri şərtlərindən biri kimi çıxış edir.

Sağlamlığın qorunması hüququnun məzmununda üç aspekt xüsusi yer tutur:

a) sağlamlığın saxlanması;

b) sağlamlığın möhkəmləndirilməsi;

c) sağlamlığın bərpası.

Sağlamlığln bərpası artıq tibbi yardımın göstərilməsi üzrə münasibətlərin yaranmasını şərtləndirir. Sağlamlığın saxlanması və möhkəmləndirilməsi üzrə tədbirlər isə yalnız tibbi yardım tədbirləri ilə yekunlaşmır. Burada sağlam ətraf mühit, sanitar-epidemiolji təhlükəsizlik, sağlam həyat tərzi, tibbi sığorta, idman, dərman vasitələrinin keyfiyyətli olması, tibbi yardımın keyfiyyətinə nəzarət və s. bu kimi amillər də mühüm rol oynayır. Prof. Z.A.Əsgərov göstərir ki, sağlamlığa çoxlu amillər təsir edir. Hal-hazırda bu amillər içərisində ətraf mühitin rolu artmışdır. Fərdin sağlamlığı getdikcə daha çox onun nə dərəcədə sağlam ətraf mühitdə yaşamasından asılı hala düşür. Elə insanın sağlamlığı baxımından da sağlam ətraf mühitdə yaşamaq hüququ çox əhəmiyyətlidir. Sağlam olmayan, yol verilən normadan artıq çirklənmiş su mənbələri, hava məkanı nəinki ekoloji sistemin digər komponentlərinə, həm də bu sistemin başlıca ünsürlərindən biri olan insana ciddi ziyan vurur. Elə buna görə də Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsində birbaşa müəyyənləşdirilir ki, hər kəsin ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına vurulmuş zərərin əvəzini tələb etmək hüququ vardır. Göründüyü kimi, sağlam ətraf mühitdə yaşamaq hüququ sağlamlığın qorunması hüququna bir növ əlavədir [5, 239].

Müəlliflərdən N.A.Kamenskiy hesab edir ki, sağlamlığın qorunmasına olan konstitusion hüququn məzmununu mühüm sosial-iqtisadi nemət kimi sağlamlığın yaxşılaşdırılması və saxlanılması, sağlam həyat tərzinin formalaşdırılması üçün zəruri şərtlərə əlçatanlıq imkanı, sağlamlığın möhkəmləndirilmə-

sinə yönələn profilaktik, müalicə və reabilitasiya tədbirlərinin vaxtında təminatı təşkil edir [12]. L.V.Domnikovanın fikrincə, sağlamlığın qorunması hüququ öz məzmununa görə aşağıdakı səlahiyyətlərdən ibarətdir:

- sağlamlığın qorunması sahəsində subyektin özünün hərəkətlərinə olan səlahiyyət;
- səlahiyyətli subyektdən (konstitusion hüquqlara münasibətdə bu dövlətdir) onun üzərinə qoyulmuş vəzifələrin həllini tələb etmək səlahiyyəti;
- dövlət onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirmədikdə dövlətdaxili orqanların köməyi ilə (məhkəmə və inzibati mexanizmlərdən, beynəlxalq təşkilatlardan, o cümlədən Avropa insan hüquqları məhkəməsindən istifadə olunmaqla) müdafiə səlahiyyəti [11, 15].

Sağlamlığın qorunması hüququ və onun məzmunu ilə bağlı maraqlı yanaşmalardan biri ondan ibarətdir ki, bu hüquq kompleks xarakter daşıyır və insan hüquq və azadlıqlarına dair beynəlxalq hüquqi sənədlərdə, qanunlarda və digər aktlarda təsbit olunan bir sıra elementar hüquqları özündə əks etdirir. Buraya xüsusən aşağıdakı hüquqlar aid edilir:

- vətəndaşların sağlamlığa təsir göstərən faktlar barədə mötəbər və vaxtında məlumat almaq hüququ;
- tibbi-sosial yardım hüququ;
- zərərli peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı fəaliyyətlə məşğul olan vətəndaşların sağlamlığının xüsusi mühafizəsi hüququ;
- ailə üzvlərinin sağlamlığının qorunmasına dövlət qayğısı hüququ;
- hamilə qadınların və anaların, yetkinlik yaşına çatmayanların, əlilliyi olan şəxslərin, ahıl vətəndaşların, fövqəladə hallar zamanı və əlverişsiz ekoloji ərazilərdə zərər çəkmiş şəxslərin sağlamlığının xüsusi mühafizəsi hüququ [9, 110-112].

Z.N.Aslanovun sağlamlığın qorunması hüququnun məzmununu daha geniş təsvir edir. Müəllifin fikrincə, vətəndaşların sağlamlığının qorunması hüququ məzmunca kompleks xarakter daşımaqla, məzmun elementləri kimi əsasən aşağıdakı hüquqları özündə əks etdirir:

- dövlət tibb müəssisələrində pulsuz tibbi xidmət;
- sağlamlıqlarına təsir göstərən amillər haqqında müntəzəm, vaxtında və düzgün məlumat almaq;
- dərman vasitələri ilə təmin olunmaq;
- sanitariya-gigiyena tələblərinə cavab verən şəraitdə təhsil almaq;
- ixtisaslaşdırılmış müəssisələrdə tibbi-sosial ekspertizadan keçmək;
- dövlət orqanlarının və vəzifəli şəxslərin sağlamlığın qorunması sahəsində vətəndaşların hüquq və azadlıqlarını məhdudlaşdıran hərəkətlərindən hüquqları pozulmuş şəxslərin qanunvericilikdə müəyyən edilmiş qaydada yuxarı orqanlara və məhkəməyə müraciət etmək hüququ;
- normal mənzil şəraitinə olan hüquq;
- hərtərəfli və balanslaşdırılmış qidalanma rejimini təmin edə biləcək

layiqli əmək haqqı almaq hüququ;

- təhlükəsiz əmək şəraiti və əməyin mühafizəsi hüququ;
- istirahət və əlverişli ətraf mühit hüququ;
- zərərli peşə fəaliyyəti və yüksək təhlükə mənbəyi ilə bağlı fəaliyyət növləri ilə məşğul olan vətəndaşların sağlamlığının xüsusi mühafizəsi hüququ;
- ailə üzvlərinin sağlamlığının qorunmasına dövlət qayğısı hüququ;
- hamilə qadınların və anaların, yetkinlik yaşına çatmayanların, əlillərin, ahıl vətəndaşların fövqəladə hallar və ekoloji fəlakətlər zamanı zərər çəkən vətəndaşların sağlamlığının xüsusi mühafizəsi hüququ;
- tibbi və sosial sığortalanma hüququ;
- vaxtında yüksək keyfiyyətli tibbi yardım almaq, sağlamlığın tam bərpası üçün zəruri olan reabilitasiya keçmək hüququ [1, 71-72].

Sağlamlığın qorunması ilə bağlı normalar yeni yaranmış hüquq sahəsi kimi tibb hüququnun əsasını təşkil etsə də, bu hüquq sahəsi kompleks hüquq sahəsi olduğu üçün göstərilən normalara digər hüquq sahələrində də, xüsusən konstitusiya, mülki, cinayət, əmək və s. hüquq sahələrində rast gəlmək olar.

Sağlamlığın qorunması hüququ öz hüquqi təbiətinə görə ikinci nəsil hüquqlara aid olan sosial-iqtisadi hüquqlar sırasına daxildir. Çünki sağlamlığın qorunması hüququ sosial rifah anlayışı ilə sıx surətdə bağlıdır.

Sosial hüquqlar cəmiyyətdə sosial həmrəyliyin əsasını təşkil edir. Hüquq ədəbiyyatında [13, 7] hüquqi və sosial dövlət dövlətin və cəmiyyətin inkişafının ardıcıl surətdə bir-birini əvəz edən iki mərhələsi kimi nəzərdən keçirilir. Hesab olunur ki, hüquqi dövlət vətəndaşlara ayrılmaz hüquqlar verməklə formal-hüquqi bərabərlik yaradır, lakin bu zaman sosial-iqtisadi bərabərsizlik problemini həll etmir. Bunu yalnız hüquqi dövlətdə bütün cəmiyyəti və xalqı birləşdirən maraqların vahid həmrəyliyi siyasətini həyata keçirməklə aradan qaldırmaq olar.

Sosial-iqtisadi hüquqlar insan və vətəndaşlara cəmiyyətdə mövcud olmaq və inkişaf etmək imkanları təqdim edən hüquqları özündə əks etdirir. Bu hüquqlar dövlətin bütün ehtiyacı olanları insan ləyaqətinin qorunması, onun maddi və mənəvi tələbatlarının normal şəkildə təmin edilməsi üçün zəruri olan minimum sosial imkanlar və sosial müdafiə ilə təmin etmək vəzifəsini müəyyən edirlər. Bir qayda olaraq, insanın sosial hüquqlarına sosial təminat hüququ, təhsil hüququ, sağlamlığın qorunması və tibbi yardım almaq hüququ, mənzil hüququ, uşaqların xüsusi hüquqları, əlillərin hüquqları və s. aid edilir [7, 32].

İnsan və vətəndaşların sağlamlığının qorunması müasir demokraitk dövlətin əsas məqsədlərindən və daxili sosial və humanist siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir [7, 32]. Qeyd etmək lazımdır ki, sağlamlığın qorunması dövlətin yalnız hüquqi deyil, həm də maliyyə və təşkilati resursları vasitəsilə təmin edilir.

İnsan hüquqlarına dair beynəlxalq sənədlərə əsasən sağlamlığın daha yüksək səviyyəsinə olan hüququn təmin edilməsi insanın sağlam həyatı üçün zəmin yaradan sosial-iqtisadi faktorların geniş dairəsindən asılıdır. Qanunve-

riciliyə uyğun olaraq buraya təhlükəsiz əmək şəraiti, əlverişli ətraf mühit, təhlükəsiz dərman preparatları, əlçatan və keyfiyyətli tibbi yardım və s. aiddir. Səhiyyənin inkişafının müasir tendensiyası göstərilən faktorların dairəsinin əhəmiyyətli dərəcədə genişlənməsini nəzərdə tutur. Bu faktorlar məcmu halında əhalinin sağlamlıq səviyyəsini müəyyən edir. Belə sosial-demoqrafik faktorların vəziyyəti sağlamlığın qorunması hüququnun həyata keçirilməsi səviyyəsini xarakterizə edən demoqrafik və institusional indikatorların məcmusu ilə təsvir edilir. Demoqrafik indikatorlara uzunömürlülük, müxtəlif sosial-yaş qrupları üzrə gözlənilən ömür müddəti, doğum səviyyəsi, ölüm səviyyəsi, əlillik səviyyəsi və s. aiddir. Bütün dünyada bu indikatorlar sağlamlığın qorunması hüququnun təminatının monitorinqi, daha ümumi planda isə insan inkişafı indeksinin hesablanması üçün istifadə edilir. Sağlamlığın qorunması sahəsində fəaliyyət göstərən qurumların sayının kifayət qədər olması, təqdim edilən əmtəə və xidmətlərin keyfiyyəti, səhiyyənin inkişafı üzrə dövlət proqramları, müvafiq resursların bölüşdürülməsi kimi institusional indikatorlar da sağlamlığın qorunması hüququnun reallaşması vəziyyətini göstərir. Demoqrafik və institusional indikatorlar səhiyyə sahəsində həyata keçirilən dövlət siyasətinin uğurlu olmasının obyektiv meyarlarıdır [14, 124]. Bu isə sağlamlığın qorunması sistemində həmin indikataorların rolunu və əhəmiyyətini bir daha təsdiq edir.

Beləliklə, bu məqalə çərçivəsində qeyd edilən bütün fikirləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar.

**1.** *Hüquq ədəbiyyatının və sağlamlığın qorunması sahəsində qüvvədə qanunvericiliyin təhlili və ümumiləşdirilməsi əsasında sağlamlığın qorunması hüququna aşağıdakı kimi anlayış vermək olar: "Sağlamlığın qorunması hüququ sosial-iqtisadi hüquqlar sırasına daxil olan, həm beynəlxalq, həm də dövlətdaxili hüquqda təsbit edilən, fiziki və psixi sağlamlığın qorunub saxlanılmasına və möhkəmləndirilməsinə, insanların fəal uzun ömürlüyünün artırılmasına və onların yüksək keyfiyyətli tibbi yardımla təmin edilməsinə yönələn, dolğun təminatı siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli tədbirlərin məcmusu ilə şərtlənən subyektiv hüquqdur".*

**2.** *Sağlamlığın qorunması hüququ həm özü əsas konstitusion hüquqlardan biridir, həm də insan və vətəndaşların digər konstitusion hüquqlarının mühüm təminatı kimi çıxış edir. Çünki sağlamlıq olmadan, bu hüquq dolğun təmin olunmadan digər hüquqlar da xeyli dərəcədə öz əhəmiyyətini itirmiş olur. İnsan və vətəndaşların sağlamlığının qorunması hüququ dolğun surətdə təmin edilmədən şəxsiyyətin layiqli həyat sürməsi, habelə onun hərtərfli və harmonik inkişafı qeyri-mümkündür.*

**3.** *Sağlamlığın qorunması hüququnun dolğun təminatında tibbi yardımın rolunun daha da artırılması üçün tibbi yardım ən azı iki başlıca meyara cavab verməlidir və dövlət bunun üçün zəruri olan bütün tədbirləri görməlidir. Həmin meyarlar bunlardır:*

*a) tibbi yardımın əlçatanlığı;*

*b) tibbi yardımın keyfiyyətli olması.*

*4. Səhiyyə və sosial sahələrdə həyata keçirilən islahatlar başlıca olaraq insanın həyat keyfiyyətinin daha da yüksəldilməsinə, onların layiqli həyatının və sağlam həyat tərzinin təmin edilməsinə yönəlməlidir. Belə olan halda insan və vətəndaşların sağlamlığın qorunması sahəsində hüquqlarının dolğun təminatı üçün əlverişli zəmin öz-özlüyündən formalaşmış olacaq.*

*5. Sağlamlığın qorunması hüququ öz məzmununa görə mürəkkəb hüquqi kateqoriya kimi çıxış edir. Burada həm hüquqlar, həm vəzifələr, həm də məsuliyyət kimi elementlər vardır. Dövlətin yurisdiksiyasında olan hər kəs sağlamlığın qorunması sahəsində hüquqlara malikdir. Dövlət, onun orqanları və vəzifəli şəxsləri bu hüquqları təmin etmək vəzifəsi və göstərilən vəzifəni lazımınca yerinə yetirmədikdə isə qanunla nəzərdə hüquqi tutulmuş məsuliyyət daşıyırlar.*

*6. Bəzən "sağlamlığın qorunması sahəsində hüquqlar" anlayışı və "pasiyent hüquqları" qarışıq salınır, eyniləşdirilir və sinonim anlayış kimi istifadə edilir. Lakin bunu düzgün hesab etmək olmaz. Çünki onlar məzmunca, əhatə dairəsinə görə fərqli anlayışlardır. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun üçüncü fəslində sağlamlığın qorunması sahəsində hüquqlar öz əksini tapmışdır. Oradakı hüquqların bir çoxu pasiyentlərlə yanaşı, pasiyent statusu olmayan şəxslərə də şamil olunur. Məsələn, vətəndaşların əmək və istirahəti üçün əlverişli şərait yaradılmasına olan hüquq (10-cu maddənin 3-cü abzası), vətəndaşların sağlamlığa təsir göstərən amillər haqqında müntəzəm və düzgün məlumat almaq hüququ (11-ci maddənin 1-ci abzası) və s. Göründüyü kimi, sağlamlığın qorunması sahəsində hüquqlar və pasiyent hüquqları eynimənalı anlayışlar deyildir. Belə ki, sağlamlığın qorunması sahəsində hüquqlar pasiyent hüquqlarından daha geniş anlayışdır və bu hüququn subyekti kimi pasiyent olub-olmamasından asılı olmayaraq hər kəs çıxış edir. Pasiyent hüquqları isə sağlamlığın qorunması sahəsində hüquqların yalnız bir qismini təşkil etməklə, artıq tibbi yardıma ehtiyacı olan (bunun üçün müraciət edən) şəxslərə şamil olunur.*

*7. Fikrimizcə, qanunvericilikdə pasiyent hüquqlarının aşağıdakı məzmunda anlayışının təsbit edilməsi məqsədəmüvafiq olardı: "Pasiyent hüquqları - sağlamlığın qorunması hüququndan törəmə olan və pasiyent tərəfindən tibbi yardım xidmətlərinin istehlakı (və ya onun könüllü olaraq subyekt qismində biotibbi tədqiqatlarda iştirakı) prosesində həyata keçirilən subyektiv hüquqlar".*

**ƏDƏBİYYAT**


1. Aslanov, Z.N. Sağlamlığın qorunması hüququ insan və vətəndaşların əsas konstitusion hüquqlarından biri kimi / Z.N.Aslanov. - Bakı: Elm və təhsil, - 2019. - 182 s.
2. Azərbaycan Respublikasının Konstitusiyası: [Elektron resurs] / URL: http://e-qanun.az/framework/897
3. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / URL: http://www.e-qanun.az/framework/4078
4. Əliyev, M.N. Azərbaycan Respublikasında tibb hüququnun nəzəri aspektləri. Monoqrafiya / M.N.Əliyev. - Bakı: "Vətənoğlu" NP MMC, - 2016. - 280 s.
5. Əsgərov, Z.A. Konstitusiya hüququ. Dərslik / Z.A.Əsgərov. - Bakı: Bakı Universiteti

nəşriyyatı, - 2006. - 698 s.
6. Əsgərov, Z.A. Konstitusiya hüququ. Dərslik / Z.A.Əsgərov. - Bakı: Bakı Universiteti nəşriyyatı, - 2011. - 760 s.
7. Mustafazadə, A.İ. Tibb hüququ. Dərs vəsaiti / A.İ.Mustafazadə, Z.N.Aslanov. - Bakı: Elm, - 2017. - 204 s.
8. Банникова, И.Г. Право на охрану здоровья и медицинскую помощь: содержание и историческая ретроспектива // Вестник Пензенского государственного университета, - 2014. № 2 (6), - с. 51-55.
9. Безручко, Е.В. Право человека на охрану здоровья в международном законодательстве // Юристь-Правовед, - 2010. № 3, – с. 110-112.
10. Белокопытов, В.А. Право на охрану здоровья и медицинскую помощь // Отечественная юриспруденция, - 2017. № 11 (25), - с. 31-32.
11. Домникова, Л.В. Гражданско-правовые способы реализации права на охрану здоровья в Российской Федерации: / дис. канд. юрид. наук. / - Москва, 2006. - 183 с.
12. Каменская, Н.А. Конституционное право на охрану здоровья и медицинскую помощь: / автореферат дис. канд. юрид. наук. / - Владикавказ, 2011. - 23 с.
13. Кистяковский, Б.А. Философия и социология права / Б.А.Кистяковский. - Санкт-Петербург: Издательство Русского Христианского гуманитарного института, - 1998. - 800 с.
14. Колесова, Н.С. Обеспечение права на охрану здоровья: демографические и институциональные индикаторы // Труды Института государства и права РАН, - 2017. - т. 12. - № 3, - с. 124-143.
15. Морозова, К.П. Конституционно-правовые основы обеспечения права граждан на охрану здоровья в Российской Федерации // Электронный научный журнал «Наука. Общество. Государство», - 2013. № 2 (2): [Электронный ресурс] / URL: https://esj.pnzgu.ru/files/esj.pnzgu.ru/morozova_ kp_13_2_28.pdf
16. Сазин, С.Т. Понятие, сущность и взаимосвязь конституционных прав на жизнь и охрану на здоровья // Конституционное и муниципальное право, - 2021. № 4, - с. 39-45.
17. Шелепов, С.Н. Конституционно-правовая основа и сущность права на охрану здоровья // Закон и право, - 2021. № 9. - с. 44-47.

## ПРАВО НА ОХРАНУ ЗДОРОВЬЯ КАК ОДНО ИЗ ОСНОВНЫХ КОНСТИТУЦИОННЫХ ПРАВ ГРАЖДАН: СОДЕРЖАНИЕ И ПРАВОВАЯ ПРИРОДА

**Ф.Р.ПАНАХОВ**

### РЕЗЮМЕ

В статье право на здоровье рассматривается как одно из основных конституционных прав граждан, анализируются вопросы, связанные с его содержанием и правовой природой. Автор определяет право на здравоохранение на основе анализа и обобщения правовой литературы и действующего законодательства в области здравоохранения, показывает роль права на здоровье в обеспечении других конституционных прав человека и гражданина, понятие «здоровье» права »и понятие« права пациента »обосновывают существование различных концепций, а также предлагают концепцию прав пациента, которая должна быть закреплена в законодательстве.

**Ключевые слова:** здоровье, здравоохранение, социальные права, право на здравоохранение, содержание права на здравоохранение, правовая природа права на здравоохранение, медицинское обслуживание, права пациентов

**HEALTH PROTECTION RIGHT AS ONE OF THE MAIN CONSTITUTIONAL RIGHT OF CITIZENS: CONTENTS AND LEGAL NATURE**

**F.R.PANAHOV**

**SUMMARY**

This article considers the healthcare as one of the basic constitutional rights of citizens, analyzes issues related to its content and legal nature. The author defines the right to healthcare based on the analysis and generalization of legal literature and current legislation in the field of health protection, shows the role of the healthcare in ensuring other constitutional human and citizens' rights, the concept of "health rights" and the concept of "patient rights" substantiates the existence of different concepts, as well as offers the concept of patient rights to be established in the legislation.

**Keywords**: health, health care, social rights, right to health care, content of health care right, legal nature of health care right, medical care, patient rights